**Azərbaycan Respublikası “Patent və Əmtəə Nişanları Mərkəzi”**

**və**

**Ukrayna Milli Universiteti “Odessa Hüquq Akademiyası”**

**arasında**

# ƏMƏKDAŞLIQ MEMORANDUMU

Kiyev şəhəri 2 oktyabr 2017-ci il

Fəaliyyətdə olan hüquqi sənədə (Nizamnaməyə və yaxud Əsasnaməyə) uyğun olaraq bir tərəfdən **Azərbaycan Respublikası “Patent və Əmtəə Nişanları Mərkəzi” publik hüquqi şəxsin** (bundan sonra “**Mərkəz**”) Baş direktoru qismində v.i.e xanım Günel Sevdimalıyevanın, digər tərəfdən **Ukrayna Milli Universiteti “Odessa Hüquq Akademiyası”nın** (bundan sonra “**Universitet**”) prezidenti akademik Kivalov Sergey Vasilyoviç qismində, (bundan sonra Tərəflər) bu Memorandumu imzaladılar:

**Maddə 1**

Memorandumun məqsədi uzunmüddətlilik əsasında Tərəflər arasında (xüsusilə Ukrayna Milli Universiteti “Odessa Hüquq Akademiyası” - Kiyev Əqli Mülkiyyət və Hüquq Mərkəzi İnstitutu) qarşılıqlı anlaşmanın təşviqi məqsədilə, elmi, texniki və əqli potensialdan səmərəli istifadə edilməsi üçün əlverişli şəraitin, həmçinin müntəzəm professional əlaqələrin yaradılması və saxlanılmasıdır. Memorandumun fəaliyyət müddətində Tərəflər qarşılıqlı mənfəət, hörmət və etibarlılıq prinsiplərinə əsaslanaraq birgə fəaliyyət göstərirlər.

**Maddə 2**

**Əməkdaşlığın əsas vəzifələri aşağıdakılardır:**

2.1. “Universitet” və “Mərkəz” əməkdaşlarının ixtisasartırma tələblərinin ödənilməsini və yenidən hazırlanmasının həyata keçirilməsi;

2.2. Əməkdaşların və mütəxəssislərin təcrübəkeçmə və ixtisasartırma tələblərinin ödənilməsi, yenidən hazırlanması məqsədilə təlim-tədris proqramlarının hazırlanması;
2.3. Vicdanlılıq, ədalətlilik və tədbirlilik prinsiplərinə əsaslanmış hüquqi mühitin formalaşmasına yardım etmək;
2.4. Hüquqi biliklərin yayılması və cəmiyyətin hüquqi mədəniyyətinin yüksəldilməsi.

**Maddə 3**

**Memorandumda qarşıya qoyulan məqsədlərə çatmaq üçün Tərəflər aşağıdakı qarşılıqlı əlaqə formalarından istifadə edirlər:**
3.1. Qarşılıqlı maraq doğuran məsələlər ilə bağlı, həmçinin müştərək layihə, proqram və tədbirlərdə iştirak üzrə məsləhətləşmələr aparırlar;
3.2. Müştərək layihə, proqram və tədbirlər hazırlayır və onların həyata keçirilməsi üçün lazımi maddi-texniki və informasiya dəstəyini təmin edirlər;
3.3. Tərəflərin elmi-praktiki fəaliyyətlərinin prioritet istiqamətləri üzrə birgə elmi-metodik, analitik, ekspert, təqdimat materiallarının nəşrini təşkil edirlər;
3.4. Bazar iqtisadiyyatı tələblərinə cavab verən ixtisaslar üzrə professional bilik və bacarıqların əldə edilməsi məqsədilə “Universitet” və “Mərkəz” tələbələrin praktika keçməsini təşkil edirlər;
3.5. Professional və akademik hərəkətliliyin inkişaf etdirilməsi. “Universitet” və “Mərkəz” əlavə və universitetdən sonrakı professional təhsil üzrə proqramına uyğun olaraq “Universitet” və “Mərkəz” əməkdaşlarının ixtisas və professional hazırlığının artırılmasını təşkil edirlər;
3.6. Tərəflərin professional maraqlarının elmi, hüquqi, təhsil və digər sahələrində operativ məlumat mübadiləsini həyata keçirirlər;
3.7. Tərəflərin elmi-praktiki fəaliyyətləri sahəsində vahid məlumat mühitinin yaranmasına yönəldilmiş səmərəli kommunikasiya formalarını işləyib hazırlayırlar;
3.8. Tərəflərin professional maraqları sahəsində əlaqlərin hüquqi idarə olunmasının yaxşılaşdırılması üzrə birgə təklifləri hazırlayırlar;
3.9. Qrantlar, müsabiqələr və beynəlxalq texniki yardımın cəlb edilməsinin digər formalarla birgə layihələrin təşkil edilməsi və koordinasiyası;
3.10. Beynəlxalq fondlarla əlaqələrin qurulmasına və inkişafına yardım edilməsi;
3.11. Beynəlxalq və daxili turizm sahəsində birgə layihələrin həyata keçirilməsinə yardım edilməsi;

3.12. Memorandumda qarşıya qoyulan məqsədlərin əldə olunmasına daha yaxşı imkan verən digər birgə fəaliyyət formalarından istifadə edirlər.

**Maddə 4**

Memorandum çərçivəsində Əməkdaşlıq Tərəflərin nizamnamə və digər müvafiq hüquqi aktlarına uyğun həyata keçirilir.

**Maddə 5**

Tərəflərin razılığı ilə müəyyən hallarda Memorandum çərçivəsində həyata keçirilən müştərək layihə və proqramlara, Tərəflər arasında başqa şərtlər müəyyən edilməyibsə, üçüncü tərəf cəlb oluna bilər.

Ukrayna Milli Universiteti “Odessa Hüquq Akademiyası” - Kiyev Əqli Mülkiyyət və Hüquq Mərkəzi İnstitutu üçüncü tərəf kimi deyil, bu Memorandumun prinsipləri ilə bağlı Universitet qurumu kimi tanınır.

**Maddə 6**

Tərəflərdən biri digər Tərəfin təşkil etdiyi simpozium, konfrans, seminar, dairəvi masa və digər bu qəbildən olan tədbirlərdə iştirak edə bilər. Bu məqsədlə Tərəflər bir birilərini belə tədbirlərin təşkili barədə göndərdikləri məktublar və ya öz internet səhifələrində yerləşdirdikləri informasiyalarla məlumatlandırırlar.

**Maddə 7**

Memorandumun ayrı-ayrı müddəalarının həyata keçirilməsi üçün Tərəflər əməkdaşlığın konkret forma, müddət və şərtləri, həmçinin onun təşkili və maliyyələşməsinin qayda və şərtləri qeyd olunan əlavə sazişlər bağlayırlar.

**Maddə 8**

Memorandum çərçivəsində Tərəflərin əməkdaşlığının əlaqələndirilməsi üçün hər bir Tərəf əlaqələndirici şəxs təyin edir və digər Tərəfə onun adını və əlaqə məlumatlarını yazılı formada bildirir.

**Maddə 9**

Tərəflər informasiya mübadiləsinin qorunmasını müvafiq qanunvericiliyə uyğun olaraq həyata keçirirlər.

**Maddə 10**

Sözügedən Memorandumun müddəalarının təfsiri və qəbulu ilə əlaqədar fikir ayrılıqları yarandığı təqdirdə, tərəflər onları danışıqlar və məsləhətləşmələr yolu ilə həll edəcəklər.

**Maddə 11**

Bu Memorandumun müddəalarına hər iki Tərəfin razılığı ilə ayrıca Protokollar imzalanmaqla əlavə və dəyişikliklər oluna bilər və Tərəflərin səlahiyyətli şəxsləri tərəfindən imzalandığı təqdirdə etibarlıdır.

**Maddə 12**

Bu Memorandum 5 (beş) il müddətinə bağlanır və Tərəflərdən hər hansı biri Memorandumun fəaliyyət müddətinin bitməsinə 30 gün qalmış iradını bildirməzsə, o, növbəti 5 il üçün uzadılmış hesab olunur.

Bu Memoranduma Tərəflərdən birinin təşəbbüsü ilə 3 (üç) ay öncədən digər tərəfə yazılı şəkildə bildirişin (sifarişli məktubun) qəbulu günündən sonra xitam verilə bilər.

**Maddə 13**

Memorandum üç əsl nüsxədə olmaqla Azərbaycan, Ukrayna və İngilis dillərində imzalanmışdır və hər üç mətn bərabər autentikdir. Hər hansı bir uyğunsuzluq halında İngilis versiyasına üstünlük verilir.

Tərəflər Memorandumun həyata keçirilməsi ilə bağlı məsələlərin müzakirə olunması məqsədilə mütəmadi olaraq görüşlər keçirəcəkləri razılığına gəldilər. Bu görüşlərin gündəlik məsələləri Tərəflər arasında danışıqlar vasitəsilə razılaşdırılacaqdır.

Bu Memorandum Tərəflər üçün məcburi hüquqi öhdəliklər yaratmır.

Bu Memorandum hər iki Tərəflərin imzaladıqları gündən qüvvəyə minir.

**AZƏRBAYCAN RESPUBLİKASI "PATENT VƏ ƏMTƏƏ NİŞANLARI MƏRKƏZİ"**

______________________________

**Günel Sevdimalıyeva**

**Baş direktor v.i.e**

**UKRAYNA MİLLİ UNİVERSİTETİ "ODESSA HÜQUQ AKADEMİYASI"**

______________________________

**Kivalov Sergey Vasilyoviç**

**Prezident**